


“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 avqust 2026-cı il №52 (3054) https://mod.gov.az Qiyməti 30 qəpik


## “Bütün tapşırıqları layiqincə yerinə yetirməyə qadirik”



***Azərbaycan üçün Xəzər dənizi coğrafi sərhəd olmaqla yanaşı, ölkənin təhlükəsizliyinin, enerji resurslarının, iqtisadi inkişafının və beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin cəmləşdiyi mühüm geosiyasi məkandır. Buna görə də Xəzərdə sabitliyin qorunması Azərbaycanın milli təhlükəsizlik strategiyasının əsas istiqamətlərindən biridir. Bu baxımdan Hərbi Dəniz Qüvvələri (HDQ) dövlətin müdafiə sistemində xüsusi yer tutur.***

HDQ-nin əsas missiyası Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda dövlətin suveren hüquqlarının qorunması, dəniz istiqamətindən yarana biləcək hərbi təhdidlərin qarşısının alınması və əlverişli əməliyyat şəraitinin təmin edilməsidir. Bununla yanaşı, enerji infrastrukturlarının, dəniz kommunikasiya xətlərinin və strateji obyektlərin mühafizəsi, dəniz kəşfiyyatının aparılması, antiterror tədbirlərinin həyata keçirilməsi, axtarış-xilasetmə əməliyyatlarının icrası və dənizdə sabitliyin qorunması da, bu qoşun növünün fəaliyyətinin mühüm istiqamətlərini təşkil edir.

Bu qoşun növünün fəaliyyəti ilə bağlı daha geniş məlumat almaq üçün HDQ-nin “N” hərbi hissəsinin qonağıyıq. Polkovnik-leytenant Eldəniz İsmayılov ilə birgə döyüş gəmilərinə doğru irəliləyirik. Söhbət zamanı zabit bildirir ki, HDQ-nin fəaliyyəti yalnız müdafiə ilə məhdudlaşmır. “Bu gün Hərbi Dəniz Qüvvələrinin məqsədi mövcud təhlükələrə operativ cavab verməklə yanaşı, mümkün riskləri əvvəlcədən müəyyən edərək onların qarşısını almaqdır. Xəzər dənizində etibarlı təhlükəsizlik mühitinin qorunması ölkəmizin iqtisadi maraqlarının və enerji təhlükəsizliyinin təmin olunmasının vacib şərtidir. Bazaların yenilənməsi, gəmi parkının gücləndirilməsi, idarəetmə sisteminin müasirləşdirilməsi və şəxsi heyətin ixtisas hazırlığının yüksəldilməsi istiqamətində ardıcıl islahatlar bu gün də davam etdirilir. Bölmələrdə döyüş hazırlığı fasiləsiz olaraq həyata keçirilir. Gündəlik məşğələlər, dənizə çıxışlar və müxtəlif taktiki təlimlər şəxsi heyətin bilik və bacarıqlarını daim təkmilləşdirir. Hər bir hərbi dənizçi dərk edir ki, döyüş tapşırığı istənilən an verilə bilər və buna görə də hazırlıq hər gün, hər saat davam etdirilir”.

(Ardı 3-cü səhifədə)

## ANAMA: Ötən ay 788 mina və 2106 partlamamış digər hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyulda icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 614, tank əleyhinə 174 mina və 2106 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 8012,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Yüksək temperaturun yaratdığı risklər



Yay fəsli insanların dincəlib istirahət etdiyi, təbiətin bütün gözəlliklərinin üzə çıxdığı mövsüm olsa da, havanın temperaturunun yüksəlməsi sağlamlıq üçün müəyyən risklər də yaradır. Xüsusilə açıq havada xidmət edən hərbi qulluqçular günəş şüalarının təsirinə, yüksək temperaturun yaratdığı fiziki gərginliyə və maye itkisinin artmasına daha çox məruz qalırlar. Bu səbəbdən yay aylarında sağlamlığın qorunması üçün sadə, lakin vacib qaydalara əməl etmək böyük əhəmiyyət daşıyır. Hər bir insan bu qaydaları bilməli, öz sağlamlığına diqqətlə yanaşmalı və zərurət yarandıqda ilk yardım tədbirlərini düzgün tətbiq etməyi bacarmalıdır.

Yay mövsümündə ən çox rast gəlinən hallardan biri günvurma və istilik vurmasıdır. Bu hallar uzun müddət günəş altında qalmaq və ya yüksək temperatur şəraitində fasiləsiz fiziki fəaliyyət göstərmək nəticəsində yaranır. Günəş şüalarının birbaşa təsiri altında bədən temperaturu yüksəlir, orqanizmin özünü soyutmaq imkanları zəifləyir və nəticədə sağlamlıq üçün təhlükəli vəziyyət yarana bilir.

(Ardı 5-ci səhifədə)

## Milli Müdafiə Universitetinin nümayəndə heyəti Polşa Respublikasında keçirilən rəqəmsal təhsil texnologiyalarına həsr olunmuş işçi görüşdə iştirak edib





Cari ilin 27–31 iyul tarixlərində Milli Müdafiə Universitetinin nümayəndə heyəti NATO-nun “Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı” (DEEP) çərçivəsində Polşa Respublikasında keçirilən rəqəmsal təhsil texnologiyalarına həsr olunmuş işçi görüşdə iştirak edib.

Milli Müdafiə Universiteti xəbər verir ki, Tədbir çərçivəsində iştirakçılara rəqəmsal və distant təhsil sahəsində tətbiq olunan müasir platformalar, süni intellekt əsaslı alətlərdən istifadə bacarıqları öyrədilib, həmçinin bu istiqamətdə təcrübə mübadiləsi aparılıb.

## Türkiyənin milli döyüş təyyarəsinin yeni prototipi ilk yerüstü hərəkət sınağını uğurla başa vurub

Türkiyənin milli qürur mənbəyi layihələrindən biri olan “KAAN” döyüş təyyarəsinin iki yeni prototipi ilk dəfə ictimaiyyətə təqdim olunub. Ötən il ilk uçuşunu həyata keçirən prototipdən fərqli olaraq, bu iki yeni platformada əhəmiyyətli texniki dəyişikliklər edilib.

AZƏRTAC xəbər verir ki, daha əvvəl iki uçuş həyata keçirən “KAAN-0” prototipindən sonra istehsal edilən yeni “KAAN-1” hazırda yerüstü sınaqlarını davam etdirir. Bu çərçivədə “KAAN-1” taksi (yerüstü hərəkət) sınağını uğurla başa vurub.

2023-cü il martın 17-də anqardan çıxarılaraq uçuş zolağına gətirilən təyyarə 11 ay ərzində türk mühəndislər tərəfindən ilk uçuşa hazırlanaraq səmaya qaldırılıb. İlk uçuşdan əvvəlki bütün sınaqlar uğurla tamamlanıb.

Türkiyənin tamamilə milli imkanları ilə layihələndirilən və istehsal edilən “KAAN”ın qanad açıqlığı 14 metr, hündürlüyü 6 metr, uzunluğu isə 21 metrdir. Bir pilotlu kabinəyə malik təyyarənin ön plana çıxan xüsusiyyətləri iki mühərrikli quruluşu, yüksək manevr qabiliyyəti, radara aşağı görünməsi (stels xüsusiyyəti), silahlarını gövdə daxilində daşıya bilməsi və elektron müharibə imkanlarıdır.



“KAAN” pilotsuz uçuş aparatları, havadan erkən xəbərdarlıq və idarəetmə sistemləri, eləcə də gələcəkdə təchiz ediləcək digər platformalarla birgə fəaliyyət göstərə biləcək.

Yeni nəsil silah sistemləri ilə havadan-havaya döyüş əməliyyatları aparmaq, səsdən yüksək sürətdə daxili silah bölmələrindən yüksək dəqiqlikli zərbələr endirmək imkanına malik olacaq “KAAN” süni intellekt və neyron şəbəkə dəstəyi sayəsində döyüş qabiliyyətini daha da artıracaq.

# Müdafiə naziri hərbi attaşelərlə görüşüb



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərin nəzdində fəaliyyət göstərən hərbi attaşeləri ilə görüşüb.

Müdafiə nazirinə cari il ərzində ölkəmizin digər ölkələrlə hərbi əməkdaşlığı üzrə mövcud vəziyyət, hərbi attaşelik aparatlarının fəaliyyəti və xarici ölkələrdə yeni təsis olunmuş attaşelik aparatları barədə ətraflı məlumat verilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə həmçinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dayanıqlı sülhün təmin olunması istiqamətində dövlətimizin həyata keçirdiyi siyasətin və ölkəmizdə ordu quruculuğu istiqamətində aparılan uğurlu islahatların təbliğinin vacibliyi vurğulanıb.



General-polkovnik Zakir Həsənov hərbi attaşelik aparatları tərəfindən xarici dövlətlərdə ölkəmizin milli maraqlarının qorunması və hərbi sahədə qarşılıqlı əməkdaşlığın inkişafı məqsədilə görülən işləri müsbət qiymətləndirib.

# HHM bölmələrinin istifadəsinə 20-yə yaxın yeni hərbi infrastruktur verilib



*<u>Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuzun maddi-texniki təminatı daha da gücləndirilir və müasir standartlara cavab verən hərbi infrastrukturlar qurulur.</u>*

Müdafiə Nazirliyinin rəhbər heyəti Hava Hücumundan Müdafiə (HHM) bölmələrinin istifadəsinə verilən yeni hərbi obyektlərə baxış keçirib.

Rəhbər heyətə məruzə olunub ki, respublikamızın müxtəlif bölgələrində yeni istifadəyə verilmiş 20-yə yaxın hərbi infrastruktur obyektlərində şəxsi heyətin xidməti-döyüş fəaliyyəti üçün lazımi şərait yaradılıb.

Müdafiə Nazirliyi xəbər verir ki, obyektlərdə yeməkxana, mətbəx, tibb məntəqəsi, yataqxana, silah otağı, məişət otağı, hamam-sanitar qovşağı, qazanxana və su təchizatı kompleksi, eləcə də ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar mövcuddur. Binalar kommunal xidmət sistemləri və kommunikasiya xətləri, o cümlədən yanğın əleyhinə siqnalizasiya ilə təchiz edilib.

İnfrastrukturlar bütün zəruri ehtiyacları təmin etmək məqsədilə müasir avadanlıq, mebel və inventarlarla təchiz olunub.



General-polkovnik Zakir Həsənov ölkəmizin hava məkanının fasiləsiz müdafiəsi, bununla yanaşı HHM bölmələrində keçirilən təlim və məşqlər zamanı arsenala yeni daxil edilmiş müasir silah və texnikanın taktiki-texniki xüsusiyyətlərinin dərindən öyrənilməsi, onların döyüş şəraitində effektiv tətbiqi qaydalarının mənimsənilməsi barədə Hava Döyüş Komandanlığına müvafiq tapşırıqlar verib.







# HDQ-də buraxılış mərasimi keçirilib







Hərbi Dəniz Qüvvələrinin (HDQ) "N" hərbi hissəsində "Partlayıcı döyüş sursatlarının zərərsizləşdirilməsi kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən HDQ komandanının birinci müavini - qərargah rəisi 1-ci dərəcəli kapitan Teymur Mürşüdov kursun əhəmiyyətini diqqətə çatdırıb, iştirakçılara gələcək xidmətlərində uğurlar arzulayıb.

Çıxış edənlər partlayıcı maddələrin, döyüş sursatlarının və mərmilərin insan həyatı üçün təhlükəsindən danışıb, eləcə də təhlükəli maddələrə toxunmamaq və dərhal zərərsizləşdirmə qrupuna məlumat vermək tövsiyə olunub.

Sonda kursu uğurla başa vuran məzunlara sertifikatlar və hədiyyələr təqdim edilib.

## “Zülfüqar-2026” birgə taktiki təlimi başa çatıb

*İordaniyada Azərbaycan, Pakistan, Türkiyə və bu ölkənin xüsusi təyinatlı bölmələrinin iştirakı ilə keçirilən “Zülfüqar-2026” birgə taktiki təlimi başa çatıb.*





Müdafiə Nazirliyi xəbər verir ki, təlimin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə İordaniya Haşimilər Krallığının vəliəhdi şahzadə II Əl-Hüseyn bin Abdullah da qatılıb.

Birgə taktiki təlimin əsas məqsədi iştirakçı ölkələrin xüsusi təyinatlı bölmələri arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi, peşəkar bilik və bacarıqların təkmilləşdirilməsi, eləcə də təcrübə mübadiləsinin genişləndirilməsi olub.

Təlim rəhbərliyi ilə birlikdə tədbirin yekun mərhələsini izləyən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-mayor Ələkbər Cahangirov xüsusi təyinatlılarımızın peşəkarlığını və hazırlıq səviyyəsini yüksək qiymətləndirib.

## “Bütün tapşırıqları layiqincə yerinə yetirməyə qadirik”



(Əvvəli 1-ci səhifədə)

“Azərbaycan Hərbi Dəniz Qüvvələrinin fəaliyyətində beynəlxalq əməkdaşlıq da mühüm yer tutur. Xəzəryanı dövlətlər tərəfdaş və dost-müttəfiq ölkələrin hərbi dəniz qüvvələri ilə keçirilən birgə təlimlər, seminarlar və təcrübə proqramları şəxsi heyətin peşəkarlığının artırılmasına, yeni taktiki yanaşmaların mənimsənilməsinə və qarşılıqlı fəaliyyət imkanlarının genişləndirilməsinə xidmət edir. Eyni zamanda, müxtəlif qoşun növlərinin cəlb olunduğu birgə təlimlər vahid komanda-idarəetmə sisteminin təkmilləşdirilməsinə və döyüş uzlaşmasının daha da gücləndirilməsinə imkan yaradır”, - deyə polkovnik-leytenant E.İsmayılov qeyd edir.

44 günlük Vətən müharibəsinə toxunan zabit Eldəniz İsmayılov vurğulayır ki, HDQ-nin şəxsi heyəti bu əməliyyatlar zamanı da qarşıya qoyulan tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirib. “Müharibə dövründə Xəzər dənizində fasiləsiz döyüş növbətçiliyi təşkil edildi, Azərbaycanın dəniz sərhədləri və strateji enerji infrastrukturu etibarlı mühafizə olundu. Bununla yanaşı, Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlı bölmələrinin şəxsi heyəti döyüş əməliyyatlarına cəlb olunaraq torpaqlarımızın azad olunmasına pay sahibi oldu. 44 günlük Vətən müharibəsi bir daha göstərdi ki, müasir döyüşlərdə HDQ-nin rolu yalnız akvatoriyanın mühafizəsi ilə məhdudlaşmır, onun şəxsi heyətinin hazırlığı əməliyyatların gedişatına da əhəmiyyətli töhfə verir”.

Növbəti müsahibimiz baş leytenant Rəşad Eyyubovdur. Söhbət zamanı öyrənirik ki, Rəşad 2014-2017-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2017-2021-ci illərdə isə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb, müxtəlif illərdə xarici ölkələrdə keçirilən təlimlərdə iştirak edib. Zabit bildirir ki, HDQ-nin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasında gəmilərin texniki hazırlığı xüsusi əhəmiyyət kəsb edir. “Döyüş gəmisinin etibarlılığı yalnız müdafiə sistemləri ilə deyil, həm də onun mühərriklərinin, naviqasiya və rabitə avadanlıqlarının, radiolokasiya vasitələrinin və digər texniki sistemlərinin fasiləsiz işlək vəziyyətdə saxlanılması ilə ölçülür. Bu məqsədlə gəmilərdə gündəlik, dövri və planlı texniki baxışlar həyata keçirilir, aşkar edilən nasazlıqlar operativ şəkildə aradan qaldırılır, profilaktik tədbirlər görülür və bütün sistemlərin döyüşə hazırlığı daim nəzarətdə saxlanılır. Texniki təminat sistemi yalnız mövcud nasazlıqların aradan qaldırılmasına deyil, həm də onların qarşısının vaxtında alınmasına hesablanıb. Gəmilərin təmiri və texniki xidməti müasir standartlara uyğun həyata keçirilir. Bu istiqamətdə aparılan işlər döyüş hazırlığının fasiləsizliyini təmin etməklə yanaşı, gəmilərin istismar müddətinin uzadılmasına, texniki resurslardan səmərəli istifadəyə və hər an qarşıya qoyulan tapşırıqları yerinə yetirməyə imkan verir. Əsas məqsədimiz gəmilərin hər an döyüş tapşırığını yerinə yetirməyə tam hazır vəziyyətdə saxlanılmasıdır”.



Zabit, həmçinin qeyd edir ki, döyüş texnikasının gücü onu idarə edən heyətin peşəkarlığından da asılıdır. “Məhz buna görə də HDQ-də şəxsi heyətin hazırlığına xüsusi diqqət yetirilir. Gəmi heyətinin hazırlanması da mərhələli şəkildə həyata keçirilir. Hərbi dənizçilik nəzəriyyəsi, taktika, naviqasiya, döyüş idarəetməsi və müasir silah sistemlərinin effektiv tətbiqi üzrə hərtərəfli hazırlıq keçirilir. İlk mərhələdə nəzəri biliklər mənimsənilir, növbəti mərhələdə simulyator və praktiki məşğələlər vasitəsilə bacarıqlar formalaşdırılır təkmilləşdirilir. Bununla yanaşı, HDQ-də keçirilən təlimlər zamanı heyət üzvlərinin qarşılıqlı fəaliyyəti sınaqdan keçirilir. Gəminin döyüş hazırlığı vəziyyətinə gətirilməsi, şərti həyəcan siqnalları zamanı şəxsi heyətin fəaliyyəti, süüstü hədəflərin aşkarlanması, dayanıqlı rabitənin təşkili və qəza-xilasetmə məşqləri mütəmadi olaraq icra edilir. Bu hazırlıq real şəraitdə operativ və düzgün qərar qəbul etmək bacarığını formalaşdırır”.



Hərbi qulluqçular Səfər Qasımov, Emin Dadaşov, Nazim Mikayılov və digərləri söhbət zamanı bildirdilər ki, qalib Azərbaycan Ordusunun ayrılmaz tərkib hissəsi olan Hərbi Dəniz Qüvvələrində xidmət etmək onlar üçün təkcə şərəf deyil, həm də Vətən qarşısında böyük məsuliyyətdir. Onlar qeyd etdilər ki, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda təhlükəsizliyin təmin edilməsi, dəniz kommunikasiya xətlərinin qorunması və ölkəmizin milli maraqlarının müdafiəsi hər bir hərbi dənizçinin əsas vəzifəsidir. Bu vəzifənin məsuliyyətini dərindən dərk edən şəxsi heyət xidmət zamanı daim ayıq-sayıq olur, qarşıya qoyulan tapşırıqları dəqiq və qüsursuz yerinə yetirmək üçün bütün bilik və bacarığını səfərbər edir.

Hərbi dənizçilərimiz vurğuladılar ki, müasir döyüş əməliyyatlarının tələblərinə uyğun təşkil olunan təlimlər, taktiki məşğələlər, dəniz yürüşləri və müxtəlif ssenarilər üzrə keçirilən hazırlıq tədbirləri onların peşəkarlığının artırılmasına, döyüş vərdişlərinin möhkəmləndirilməsinə və şəxsi heyətin istənilən şəraitdə çevik qərar qəbul etmək bacarığının inkişafına mühüm töhfə verir. Onların sözlərinə görə, hər bir təlim real döyüşə hazırlığın vacib mərhələsidir və əldə olunan təcrübə xidmətdə daha inamlı fəaliyyət göstərməyə imkan yaradır.



“Dənizçi andına daim sadiq qalaraq Vətənimizin mavi sərhədlərinin keşiyində qürurla dayanır, dövlətimizin suverenliyinin və ərazi bütövlüyünün etibarlı müdafiəsi naminə üzərimizə düşən bütün vəzifələri yüksək məsuliyyətlə yerinə yetiririk. Xəzərin hər qarışının etibarlı mühafizəsi bizim üçün müqəddəs vəzifədir və bu şərəfli missiyanı layiqincə davam etdirmək üçün hər an döyüş tapşırıqlarını yerinə yetirməyə hazırıq”, - deyə hərbi dənizçilər vurğuladılar.

Son illərdə keçirilən birgə təlimlər, tərəfdaş ölkələrlə qarşılıqlı təcrübə mübadiləsi, hərbi qulluqçularımızın müxtəlif ixtisasartırma kurslarında iştirakı və müasir təlim metodlarının tətbiqi şəxsi heyətin peşəkarlığının yüksəldilməsinə mühüm töhfə verir. Bu gün qlobal təhlükəsizlik mühitində baş verən dəyişikliklər HDQ-nin davamlı inkişafını zəruri edir. Xəzər dənizində milli maraqların etibarlı qorunması, enerji təhlükəsizliyinin təmin edilməsi, regional sabitliyin möhkəmləndirilməsi və dövlətimizin dənizdəki strateji üstünlüyünün saxlanılması istiqamətində görülən işlər göstərir ki, Azərbaycan Hərbi Dəniz Qüvvələri qarşıda duran bütün vəzifələri layiqincə yerinə yetirməyə qadir və hazırdır.

**Leytenant**
**Tamilla HÜSEYNLİ**
**“Azərbaycan Ordusu”**

Tibb xidməti

# “Tibb məntəqəsində hər bir müraciət fərdi qaydada qiymətləndirilir”

*Azərbaycan Ordusunda xüsusi diqqətdə saxlanılan məsələlərdən biri də şəxsi heyətin sağlamlığının qorunmasıdır. Bu sahədə tibb məntəqələrinin və tibb xidməti heyətinin üzərinə mühüm vəzifələr düşür. Hərbi hissələrdə fəaliyyət göstərən tibb məntəqələrində şəxsi heyətin ilkin tibbi müayinəsi aparılır, sağlamlıq vəziyyəti qiymətləndirilir, ambulator müalicəsi təşkil olunur, zərurət yarandıqda isə ixtisaslaşmış tibb müəssisələrinə təxliyəsi təmin edilir.*



"N" hərbi hissəsinin tibb məntəqəsində fəaliyyətin təşkili ilə yaxından tanış olduq. Həmsöhbətim tibb xidməti baş leytenantı Haxov Nicat Mehdi oğlu əvvəlcə özü haqqında məlumat verdi. Nicat Haxov 1995-ci il mayın 5-də Balakən rayonunun Gərəkli kəndində anadan olub. O, 2012-ci ildə Hərbi Tibb Fakültəsinə qəbul olunub. 2018-ci ildə təhsilini başa vurduqdan sonra hərbi həkim kimi xidmətə başlayıb. 2020-ci ildə Vətən müharibəsində iştirak edən Nicat Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində yaralı hərbi qulluqçuların müayinəsi və müalicəsində yaxından iştirak edib. Döyüş əməliyyatlarındakı fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları, eləcə də "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib. Tibb xidməti baş leytenantı Nicat Haxovun sözlərinə görə, şəxsi heyətin müraciətlərinə ilk növbədə tibb məntəqəsində baxılır və onların sağlamlıq vəziyyəti burada qiymətləndirilir.

"İlkin müayinə zamanı müraciət edən hərbi qulluqçunun şikayətləri dinlənilir, ümumi vəziyyəti qiymətləndirilir və müalicə istiqaməti müəyyənləşdirilir. Müraciətlərə əsasən yüksək bədən hərarəti, mövsümü respirator infeksiyalar, bronxit və müxtəlif dəri allergiyaları ilə bağlı olur. Yüngül xəstələr tibb məntəqəsində müalicə alırlar".

Hərbi həkim qeyd etdi ki, müalicə müddətində xəstələrin vəziyyəti gündəlik nəzarətdə saxlanılır. Müalicə kursunu başa vuran hərbi qulluqçular sağlamlıq vəziyyətlərinə uyğun olaraq xidmət yerlərinə qayıdırlar. O, bildirdi ki, ilkin müayinə zamanı əlavə müayinəyə ehtiyac yarandığı və ya xəstənin vəziyyəti tələb edirsə, vaxt itirilmədən növbəti zəruri tədbirlər görülür.

"Belə hallarda xəstə mobil tibb avtomobili ilə hərbi hospitala təxliyə olunur. Məqsədimiz müraciət edən hərbi qulluqçunun mümkün qədər qısa müddətdə ixtisaslaşmış tibbi yardımla təmin edilməsidir. Operativ qərar qəbul edilməsi sonrakı müalicə prosesində mühüm rol oynayır".

Həmsöhbətim onu da bildirdi ki, tibb məntəqəsinin fəaliyyəti yalnız müraciət edən xəstələrin müalicəsi ilə məhdudlaşmır. Mövsümü xəstəliklərin və virus infeksiyalarının yayılmasının qarşısının alınması məqsədilə profilaktik tədbirlər maarifləndirici söhbətlər də davamlı şəkildə həyata keçirilir.

"Şəxsi heyət arasında gigiyena qaydaları, yoluxucu xəstəliklərdən qorunma üsulları və sağlam həyat tərzi ilə bağlı söhbətlər aparılır, görüşlər təşkil edilir. Profilaktik tədbirlər xəstəliklərin yayılmasının qarşısının alınmasında mühüm rol oynayır və biz bu istiqamətdə işi plan əsasında mütəmadi davam etdiririk".

Tibb məntəqəsində olduğumuz müddətdə müşahidə etdik ki, müraciət edən hər bir hərbi qulluqçunun müayinəsi ardıcıllıqla aparılır, hər bir xəstəyə fərdi yanaşılır və müalicə prosesi həkim nəzarəti altında davam etdirilir. Zərurət yarandıqda təxliyə prosesi operativ şəkildə təşkil olunur, profilaktik tədbirlər isə gündəlik tibbi fəaliyyətin ayrılmaz hissəsi kimi həyata keçirilir. Tibb xidməti baş leytenantı Nicat Haxovla söhbətdən aydın olur ki, tibb məntəqəsinin fəaliyyəti yalnız müalicə ilə məhdudlaşmır. İlkin diaqnostika, profilaktik tədbirlər, maarifləndirmə işi və zəruri hallarda operativ təxliyə vahid sistem şəklində təşkil edilir. Bu fəaliyyət şəxsi heyətin sağlamlığının qorunmasına və tibbi təminatın səmərəli təşkilinə xidmət edir. Həmçinin tibb məntəqəsinin ürəkaçan şəraiti də diqqətimizi çəkdi. Müasir tibbi avadanlıqlar və dərman təminatının lazımi səviyyədə olması müayinə və müalicənin səmərəli aparılmasına şərait yaradır. Bir sözlə, Azərbaycan Ordusuna dövlətimiz tərəfindən göstərilən yüksək ali diqqət və qayğının burada da şahidi olduq. Bir daha əmin olduq ki, ordumuzda xidmət edən gənclərin bütün qayğıları diqqətdə saxlanılır və onlara yüksək qayğı göstərilir.

**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

Sıra hazırlığı

# Sıra hazırlığı döyüş hazırlığının tərkib hissəsidir

*Hər bir əsgər və matros ordu sıralarına daxil olduğu gündən sıra hazırlığını mükəmməl şəkildə öyrənməli, bu sahədə nəzəri, praktiki cəhətdən biliklərini artırmalıdır. Çünki ordu quruculuğunda dəmir hərbi intizam şərtdir və nizam-intizam da sıradan başlayır. Həmçinin sıra hazırlığı döyüş hazırlığının ayrılmaz tərkib hissəsidir. Bəli, o sıralarda qəhrəman Azərbaycan əsgəri mətin, əzmli addımlarla irəliləyərək qürur tariximizi yazıb. O sıra şəhidlərimizin müqəddəs and yeri olub. Bütün döyüşlərə yol sıradan başlayıb. Ona görə də şəxsi heyət hər dəfə sıra hazırlığı keçərkən ilk olaraq şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edir, şərəfli döyüş yolunu xatırlayırlar. Şəxsi heyətə vətənpərvərlik ruhunun aşılanmasında bu müqəddəs ənənələrin davam etdirilməsi mühüm rol oynayır. Hər zaman yenilənən sıralarda mətin Azərbaycan əsgəri əzmlə, qürurla addımlayır…*



Xəzərin sahilində yerləşən “N” hərbi hissəsinin ərazisinə daxil olduqda gənc matrosların addım səslərini eşidirik. Qürurverici hisslər keçiririk. Onlar növbəti sıra hazırlığı məşğələsində nəzəri-praktiki elementləri icra edirlər. Matroslar ayaqlarını eyni vaxtda yerə vurur, yaranan səs dalğası ətrafı bürüyür. Verilən komandalar cəld yerinə yetirilir. Nizamlı şəkildə sağa, sola, geriyə dönmə hərəkətləri praktiki olaraq icra olunur. Çox qürurverici haldır ki, rəşadətli ordumuzun sıralarında xalqımızın belə igid, qorxmaz oğulları Vətənə vicdanla, şərəflə xidmət edir, onun keşiyində, müdafiəsində əzmlə dayanırlar.

Müşahidələrimiz onu göstərdi ki, matrosların bütün hazırlıqları kimi sıra hazırlıqları, müxtəlif məzmundakı dərsləri çox səmərəli keçirilir. Şəxsi heyət mövcud əyani vasitələrdən, tədris imkanlarından yetərincə bəhrələnirlər. Dərs prosesində komandirdən sıra hazırlığı ilə bağlı bütün mövzuları incəliklərinə qədər hərtərəfli öyrənirlər. Buradan aydın olur ki, əsas məqsəd şəxsi heyətə döyüş vərdişlərini aşılamaq və mənəvi-psixoloji ruh yüksəkliyi yaratmaqdır. Yaxşı bilirik ki, hərbi xidmətin ən mühüm və vacib şərtlərindən biri nizam-intizamdır. Bunun da təməli sıradan başlanır.

Öyrənirik ki, hər dəfə yeni mövzunu əhatə edəcək dərsə başlayan məşğələ rəhbəri əvvəlcə vaxtilə bu sıralarda dayanan Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman oğulların şanlı döyüş yolu haqqında qısa məlumat verir. Ümumiyyətlə, sıra hazırlığı məşğələlərində şəxsi heyətə silahsız və silahla sıra hərəkətləri və yerişi bölmə və hissələrin piyada, eyni zamanda, nəqliyyat vasitələrində sıralarını, əsgəri salamlaşma qaydalarını, sıra baxışının keçirilməsini, hərbi hissənin Döyüş Bayrağının sırada vəziyyəti, onun çıxarılmasını və qaytarılmasını, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borclarını, sıra hazırlığına olan tələbləri, habelə yerdəyişmə qaydaları öyrədilir. Hazırda keçirilən dərsin mövzusunun əsgəri salamlaşma, rəisə





yaxınlaşma, hərəkətdə dönmələr və digər sıra elementlərinin praktik olaraq yerinə yetirilməsidir. Müşahidələrimiz onu da təsdiqləyir ki, sırada dayanan şəxsi heyət verilən tapşırıqların öhdəsindən bacarıqla gəlir.

Sıra hazırlığının elementlərini uğurla yerinə yetirən matroslardan Elşən Abbasov, Cəsur Mirzəzadə, Məhəmməd Saramanlı, Emil Abışzadə, Tural Qəniyev və başqaları ilə söhbətim zamanı aydın oldu ki, onların hər birinin qəlbində sonsuz Vətən sevgisi var. Hərbi xidmət zamanı bütün vərdişlərə dərindən yiyələnməklə, vəzifə borclarını layiqincə yerinə yetirməklə doğma Vətənimiz Azərbaycanın keşiyində əzmlə, fəxrlə dayanıblar. Onlar Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı düşmən işğalından azad edən və üçrəngli bayrağımızı o ərazilərimizdə dalğalandıran Qalib Azərbaycan Ordusunun sıralarında hərbi xidmət keçməkdən qürurlu olduqlarını söylədilər.

**Lalə HÜSEYNOVA**
**“Azərbaycan Ordusu”**

# Ombudsman Aparatının nümayəndələri hərbi hissədə olublar






Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında imzalanan 2026-cı ilin birgə tədbirlər planına əsasən, aparatın nümayəndələri Quru Qoşunlarının tabeliyində fəaliyyət göstərən hərbi hissələrdən birində olublar.

Müdafiə Nazirliyi xəbər verir ki, nümayəndələr hərbi hissədə şəxsi heyətin təminatı və məişət şəraiti ilə tanış olub, tibb məntəqəsində müalicə alanların sağlamlıq durumları, o cümlədən onlara göstərilən tibbi xidmətlə maraqlanıblar.

Hərbi qulluqçularla görüşdə insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi və digər mövzularla bağlı söhbətlər aparılıb, şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.



# Yüksək temperaturun yaratdığı risklər

(Əvvəli 1-ci səhifədə)

Günvurmanın ilk əlamətləri adətən baş ağrısı, başgicəllənmə, güclü halsızlıq, ürəkbulanma, bədən hərarətinin yüksəlməsi, dərinin qızarması və nəbzin sürətlənməsi ilə özünü göstərir. Daha ağır hallarda insan huşunu itirə və ya ətraf mühitə zəif reaksiya verə bilər. Belə vəziyyətlə qarşılaşdıqda vaxt itirmədən günvuran şəxsi sərin və kölgəli yerə aparmaq, artıq geyimlərini çıxarmaq, bədənini sərinlətmək və imkan daxilində kiçik qurtumlarla su içirmək lazımdır. Şəxsin vəziyyəti ağırdırsa və ya huşu yerində deyilsə, ona su vermək olmaz. Bu halda dərhal tibb işçilərinə müraciət edilməlidir.

Günvurmanın qarşısını almaq isə onu müalicə etməkdən daha asandır. Günün ən isti saatlarında uzun müddət birbaşa günəş altında qalmaqdan çəkinmək, imkan olduqca kölgədə dincəlmək, baş geyimindən istifadə etmək və açıqrəngli, yüngül geyimlər seçmək tövsiyə olunur. Fiziki fəaliyyət zamanı mütəmadi fasilələr vermək və kifayət qədər maye qəbul etmək də vacibdir.

İsti havalarda orqanizm çoxlu maye itirir. Tərləmə nəticəsində yalnız su deyil, orqanizmin normal fəaliyyəti üçün vacib olan mineral maddələr də xaric olur. Bu səbəbdən susuzlaşma yaranır. Susuzlaşma diqqətin azalmasına, yorğunluğa, başgicəllənməyə və iş qabiliyyətinin aşağı düşməsinə səbəb ola bilər. Ağır hallarda isə sağlamlıq üçün ciddi təhlükə yaradır.

Bir çox insanlar yalnız susadıqda su içirlər. Halbuki susuzluq hissi yarandıqda orqanizm artıq müəyyən qədər maye itirmiş olur. Buna görə də yay aylarında gün ərzində mütəmadi olaraq kifayət qədər su qəbul etmək tövsiyə edilir. Çox şəkərli və qazlı içkilər susuzluğu tam aradan qaldırmır. Ən düzgün seçim adi içməli sudur. Açıq havada çalışan və ya fiziki fəaliyyətlə məşğul olan şəxslər su qəbuluna xüsusi diqqət yetirməlidirlər.

Yay fəslində günəş yanıqları da tez-tez rast gələnən problemlərdəndir. Uzun müddət günəş şüalarının təsiri altında qalmaq dərinin qızarmasına, ağrımasına, hətta qabarcıqların yaranmasına səbəb ola bilər. Dərinin qorunması üçün günəş şüalarının daha intensiv olduğu saatlarda birbaşa günəş altında qalmaqdan çəkinmək, bədəni örtən yüngül geyimlərdən istifadə etmək və zərurət olduqda günəşdən qoruyucu vasitələr tətbiq etmək faydalıdır. Günəş yanığı yaranarsa, zədələnmiş nahiyə sərin saxlanılmalı, dərini qıcıqlandıra biləcək vasitələrdən istifadə edilməməlidir. Güclü yanıq hallarında isə həkimə müraciət etmək vacibdir.

Yay aylarında düzgün qidalanma da sağlamlığın qorunmasında mühüm rol oynayır. Havanın isti olması səbəbindən ağır, yağlı və həddindən artıq kalorili qidalar orqanizmə əlavə yük yaradır. Bu mövsümdə meyvə, tərəvəz, süd məhsulları və yüngül yeməklərə üstünlük verilməsi daha məqsədəuyğundur. Qidalar yalnız etibarlı şəraitdə saxlanılmalı və istifadə müddəti keçmiş məhsullardan qətiyyən istifadə edilməməlidir. İsti havada tez xarab olan qidalar müxtəlif zəhərlənmələrə səbəb ola bilər ki, bu da insan sağlamlığı üçün ciddi təhlükə yaradır.

Yay mövsümündə qida zəhərlənmələrinin sayı da artır. Bunun əsas səbəblərindən biri isti havada qidaların daha tez xarab olmasıdır. Ət, süd, balıq və digər tez xarab olan məhsullar lazımi temperaturda saxlanılmadıqda onların tərkibində sağlamlıq üçün təhlükəli mikroorqanizmlər sürətlə çoxalır. Belə qidaların qəbul edilməsi ürəkbulanma, qusma, ishal, qarın ağrıları və bədən hərarətinin yüksəlməsi ilə müşayiət olunan zəhərlənmələrə səbəb ola bilər. Bu cür halların qarşısını almaq üçün qidaların hazırlanması və saxlanılması zamanı gigiyena qaydalarına ciddi əməl edilməli, istifadə müddəti keçmiş və ya görünüşü, qoxusu dəyişmiş məhsullar istehlak edilməməlidir. Yeməkdən əvvəl və sonra əllərin sabunla yuyulması da xəstəliklərin qarşısının alınmasında mühüm rol oynayır.




Yay aylarında həşərat və gənə sancmaları ilə də daha çox qarşılaşılır. Arı, ağcaqanad və digər həşəratların sancması əksər hallarda yüngül narahatlıq yaratsa da, bəzi insanlarda güclü allergik reaksiyaya səbəb ola bilər. Gənə sancmaları isə müxtəlif yoluxucu xəstəliklərin yayılmasına şərait yarada bilər. Buna görə də otlu və kolluq ərazilərdə olarkən bədəni mümkün qədər örtən geyimlərdən istifadə etmək, açıq qalan nahiyələrə qoruyucu vasitələr tətbiq etmək və ərazi tərk edildikdən sonra bədəni diqqətlə yoxlamaq tövsiyə olunur. Sancma yerində güclü şişkinlik, nəfəs almaqda çətinlik, yüksək hərarət və ya səpgilər yaranarsa, dərhal tibb müəssisəsinə müraciət edilməlidir.

İsti hava şəraitində fiziki fəaliyyət zamanı təhlükəsizlik qaydalarına riayət etmək də vacibdir. Yüksək temperatur orqanizmin daha tez yorulmasına səbəb olur. Buna görə də fiziki məşğələlər zamanı imkan daxilində kölgədə qısa fasilələr vermək, mütəmadi su içmək və özünü həddindən artıq yormamaq lazımdır. Özünü halsız hiss edən şəxs bunu gizlətməməli, vaxtında rəhbərinə və ya tibb işçisinə məlumat verməlidir. Sağlamlıqla bağlı kiçik görünən problem vaxtında tədbir görülmədikdə daha ciddi fəsadlara səbəb ola bilər.

Yay aylarında gigiyena qaydalarına riayət olunması da xüsusi əhəmiyyət daşıyır. İsti hava bakteriyaların sürətlə çoxalmasına şərait yaratdığı üçün şəxsi təmizliyə diqqət yetirmək müxtəlif dəri və bağırsaq xəstəliklərinin qarşısının alınmasına kömək edir. Təmiz içməli sudan istifadə etmək, əlləri mütəmadi yumaq, paltarları vaxtında dəyişmək və yaşayış yerlərinin təmiz saxlanılması sağlam həyat tərzinin vacib şərtlərindəndir.

Mütəxəssislər bildirirlər ki, sağlamlığın qorunmasının əsas şərtlərindən biri profilaktik tədbirlərə vaxtında əməl etməkdir. Sadə görünən qaydalar - kifayət qədər su içmək, düzgün qidalanmaq, günəş şüalarından qorunmaq, gigiyena normalarına riayət etmək, orqanizmin verdiyi siqnallara diqqət yetirmək və digər zəruri tapşırıqlar bir çox sağlamlıq probleminin qarşısını almağa imkan verir.

Hərbi qulluqçuların sağlamlığı ordunun döyüş qabiliyyətinin mühüm amillərindən biridir. Fiziki və mənəvi cəhətdən sağlam şəxsi heyət qarşıya qoyulan tapşırıqları daha yüksək məsuliyyətlə və peşəkarlıqla yerinə yetirir. Buna görə də yay mövsümündə təhlükəsizlik və sağlamlıq qaydalarına əməl etmək hər bir hərbi qulluqçunun şəxsi məsuliyyəti olmaqla yanaşı, ümumi xidmətin təhlükəsiz və səmərəli təşkili baxımından da böyük əhəmiyyət daşıyır.

Sağlamlığın qeydinə qalmaq yalnız xəstələndikdən sonra müalicə almaq demək deyil. Əsl sağlam həyat tərzi təhlükələri əvvəlcədən tanımaq, onların qarşısını almaq və gündəlik həyatda düzgün vərdişlər formalaşdırmaqdan başlayır. Yay mövsümünün bəxş etdiyi imkanlardan təhlükəsiz şəkildə yararlanmaq üçün hər kəs sadə profilaktik qaydalara əməl etməli, özünün və ətrafındakı insanların sağlamlığına həssas yanaşmalıdır.

Yay fəslinin yaratdığı risklərdən qorunmaq çətin deyil. Bunun üçün sadəcə sağlam həyat tərzinin əsas qaydalarına əməl etmək, orqanizmin verdiyi siqnallara diqqətlə yanaşmaq və zərurət yarandıqda vaxtında tibbi yardım almaq kifayətdir. Günvurma, susuzlaşma, qida zəhərlənməsi və digər mövsümi sağlamlıq problemlərinin qarşısını almaq əksər hallarda hər bir insanın öz davranışından asılıdır. Yay mövsümündə təhlükəsizlik və sağlamlıq qaydalarına əməl etmək həm özümüzün, həm də xidmət yoldaşlarımızın sağlamlığının qorunmasına töhfə verir. Unutmayaq ki, sağlam şəxsi heyət güclü ordunun, güclü ordu isə etibarlı dövlətin əsas dayaqlarından biridir.

**"Azərbaycan Ordusu"**

*Heç kim unudulmur*

# Xalqımızın qəlbində əbədi yaşayanlar

*Hər bir xalqın qürur mənbəyi Vətən uğrunda canından keçən insanlardır. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və təhlükəsizliyi naminə şəhidlik zirvəsinə ucalan igidlərimiz xalqımızın şərəf salnaməsini yazan övladlardır. Onlar müxtəlif bölgələrdə dünyaya göz açsalar da eyni amal uğrunda birləşərək Vətənə sədaqətin ən ali nümunəsini göstəriblər. İyulun 27-dən avqustun 2-dək doğum günü qeyd olunan şəhidlərimizin hər biri öz qısa, lakin mənalı ömür və şərəfli döyüş yolu ilə Azərbaycan tarixinə silinməz iz qoyub. Onların həyat hekayələri yalnız döyüş meydanında göstərdikləri şücaətlə məhdudlaşmır. Böyüdükləri ailə mühiti, aldıqları təhsil, əmək fəaliyyətləri, hərbi xidmətə bağlılıqları və Vətən sevgisi onların şəxsiyyətini formalaşdıran əsas xüsusiyyətlərdir.*



Bu gün həmin igidlərin doğum tarixlərini ehtiramla anmaq həm onların əziz xatirəsinə hörmətin ifadəsi, həm də gələcək nəsillərə vətənpərvərlik hissinin aşılanması baxımından böyük əhəmiyyət daşıyır. Onların adı və göstərdikləri fədakarlıq zaman keçdikcə daha da dəyər qazanır, xalqımızın yaddaşında əbədi yaşayır.

Aşağıda təqdim olunan qısa məlumatlarda iyulun 27-dən avqustun 2-dək doğulan şəhidlərimizin həyat və döyüş yolu haqqında əsas məqamlar yer alır. Müqəddəs amal uğrunda canından keçən bütün şəhidlərimizin fədakarlığı, şücaəti bir daha sübut edir ki, Vətən sevgisi insanı əbədiyyətə qovuşduran ən böyük dəyərdir.

* * *

**Mayor Azər Əmrah oğlu Mikayılov** 1980-ci il avqustun 1-də Kəlbəcər rayonunda anadan olub. Onun Vətənə qarşı olan hissləri, vətənpərvərlik duyğusu hər kəsə məlum olub. Ailəsi ona başqa peşələrlə məşğul olmağı məsləhət görsə də o, hər zaman xüsusi sevgi və rəğbət bəslədiyi hərb sənətini seçərək zabit olub. Azər 1997-ci ildə orta məktəbi bitirdikdən sonra sənədlərini indiki Heydər Əliyev adına Hərbi İnstituta verib və kursant adını daşıyıb 2002-2003-cü illərdə təhsilini indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində bitirərək, “leytenant” hərbi rütbəsində xidmətini davam edib.

O, hərbi xidmətə Naxçıvanda Əlahiddə Ümumqoşun Orduda taqım komandiri kimi başlayıb. Qısa müddətdən sonra o, hərbi hissənin kəşfiyyat bölüyünə taqım komandiri təyin olunub. Sonralar tabor komandiri vəzifəsinə qədər yüksəlib.

Azər Mikayılov 2016-cı ildə Aprel döyüşlərinə qatılıb. Lələtəpə yüksəkliyinin azad olunmasında fəal iştirak edib.

Cəsur və qorxmaz keyfiyyətlərə malik olan Azər hər zaman doğma torpaqlarımızın azad olunması uğrunda öz canından keçməyə belə hazır olduğunu bildirib. Ən böyük arzularından biri də Kəlbəcərin erməni işğalından azad olunmasında iştirak etmək və ailəsi ilə birgə orada yaşamaq idi.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan zaman o da yoldaşları ilə birgə ön cəbhədə olub və döyüşərək Füzuli, Cəbrayıl, Hadruta kimi irəliləməyi bacarıb. Oktyabrın 8-də Füzuli-Cəbrayıl istiqamətində gedən ağır döyüşlərdə tabeliyindəki şəxsi heyətlə düşmənə sarsıdıcı zərbələr endirib. Həmin tarixdə şəhid olub.

Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, “Qarabağ” ordeni, “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

* * *

Vətən müharibəsində şəhid olan igidlərimizdən biri də **kapitan Həmid Kərim oğlu Cəfərlidir**. 1990-cı ilin avqustun 1-də



Bakı şəhərində anadan olan Həmid 1996-cı ildə Bakı şəhəri, Xətai rayonu 88 saylı orta məktəbə daxil olduqdan sonra 8-ci sinifə qədər burada təhsil alıb. O, zabit olaraq xalqına şərəflə xidmət etmək arzusunu reallaşdırmaq məqsədilə 2004-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Buradakı təhsilini bitirdikdən sonra indiki Heydər Əliyev adına Hərbi İnstituta qəbul olub. Təhsilini “qoşun kəşfiyyatı” ixtisası üzrə alan Həmid Cəfərli “leytenant” hərbi rütbəsinə layiq görülərək böyük arzularından birini reallaşdırıb.

Döyüş və ictimai hazırlıqda, nizam-intizamında yüksək nailiyyətlər əldə etdiyinə görə Fəxri fərman, 3-cü dərəcəli "Qüsursuz xidmətlərinə görə" və Silahlı Qüvvələrin yaranmasının 95 və 100 illiyi yubiley medalları ilə təltif olunub. Bir çox vəzifələrə qədər yüksələn Həmid Cəfərli haqq savaşımızda döyüşənlər sırasında olub.

O, Cəbrayıl istiqamətində düşmənin mühəndis-istehkam səddinin yarılmasında, Füzuli rayonunun bir neçə kənd və yüksəkliklərinin işğaldan azad edilməsində fəal iştirak edib.

Həmid dostları ilə danışarkən bildirib ki, "əgər müharibədən sağ-salamat çıxsam, mütləq kitab yazacağam". Özünə şəhidlik zirvəsi arzulayan Həmid sentyabrın 27-də dostuna yazıbmış: “Xoş o adamın halına ki, ona Şəhidlik nəsib olur”.

Kapitan Cəfərli Həmid Kərim oğlu oktyabrın 5-də Füzuli rayonunun Pirəhmədli kəndi uğrunda gedən qeyri-bərabər döyüşlərdə şəhid olub. Nəşi indiki Hərbi Memorial Məzarlıqda dəfn olunub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, 3-cü dərəcəli “Rəşadət” ordeni, “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

* * *

**Baş leytenant Amin Mayis oğlu Gülməmmədov** 1995-ci il iyulun 31-də Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Saltaq kəndində doğulub. 2001-ci ildə Saltaq kənd tam orta məktəbinin birinci sinifinə qəbul olub. 2010-cu ildə Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirib. 2013-cü ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olunub. 2017-ci ildə bu təhsil ocağını bitirib “leytenant” hərbi rütbəsi ilə Füzuli rayonunda yerləşən bölmələrimizdən birində xidmətə başlayıb.

Sentyabrın 27-də başlanan İkinci Qarabağ savaşına baş leytenant kimi qoşulan Amin Gülməmmədov Füzuli, Xocavənd, Cəbrayıl və Hadrutun düşmən işğalından azad olunması uğrun-



da döyüşüb. Gərgin keçən döyüşlər vaxtı Daşaltı istiqamətində gedən mübarizədə noyabrın 2-də şəhidlik zirvəsinə ucalıb. Onun nəşi 28 dekabr 2020-ci ildə Saltaq kənd qəbiristanlığında torpağa tapşırılıb. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Cəsur döyüşçü”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Şəhid baş leytenant Amin Gülməmmədov dostlarının və yaxınlarının xatirəsində hər zaman mərd, cəsur, hərbi mundiri şərəflə daşıyan və əsgərlərlə səmimi dost münasibəti saxlayan zabit kimi yaşamağa davam edəcəkdir.



* * *

**Miçman Ruslan Rəcəb oğlu Rəcəbov** 1984-cü il avqustun 1-də Xocavənd rayonunda anadan olub. Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı olan Ruslan Rəcəbov Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən



döyüşlərdə savaşıb. O, oktyabrın 31-də Xocavənd döyüşləri zamanı şəhid olub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, “Qarabağ” ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

* * *

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu **əsgər Kamil Mətləb oğlu Salahov** 1998-ci il iyulun 30-da Yevlax rayonunun Aran qəsəbəsində doğulub. İdmana həvəsli olan Kamil idmanın bir çox növləri ilə peşəkar şəkildə məşğul olub. Eyni zamanda, o, dəfələrlə qarışıq idman növü üzrə (MMA) dünya çempionu adına layiq görülüb.

Gümrah ab-havada olan əsgər Kamil Salahov müharibənin başlama xəbərini eşidən kimi döyüşlərə qatılır. Müharibənin ilk günlərindən ön cəbhədə olaraq Talış və Suqovuşanın işğaldan azad olunması istiqamətində gedən döyüşlərdə iştirak edib.

Hərbçilərimiz torpaqlarımızda düşmən işğalına son qoymaq arzusu ilə, düşmənə qarşı haqq mübarizəsi aparırdılar. Kamilin də məqsədi bu idi: torpaqlarımızı bir zaman azad görmək. Ancaq döyüş yoldaşlarının gözü önündə şəhid olması onu da yaman sarsıtmışdı. Döyüş meydanında şücaət göstərən K.Salahov sentyabrın 28-də yaralı döyüş yoldaşlarını xilas etmək istəyərkən snayper gülləsi ilə başından vurularaq şəhid olub.

Suqovuşan istiqamətində şəhidlik zirvəsinə ucalan K.Salahov sentyabrın 29-da Yevlax rayon qəbiristanlığında dəfn olunub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda” “Cəsur döyüşçü’ və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

* * *

**Əsgər Mənsur Ağa oğlu Ağayev** 1994-ci il iyunun 29-da Hacıqabul rayonunun Padar qəsəbəsində anadan olub.

Hərbi xidmətini başa vurub geri qayıdan Mənsur Ağayev işğalda olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın döyüş əmrinə hazır idi... Onun həyəcanını görüb-duyan ailəsi istəyinə qarşı çıxmayaraq qərarında onu dəstəkləyiblər. Evdən çıxarkən isə son sözləri belə olub: "Ana, mən şəhid olsam, həmişə mənim adımla fəxr edərsən".



O, 44 günlük Vətən müharibəsi zamanı Füzuli və Hadrutun azad olunması uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşub. İlk gündən yoldaşları ilə birlikdə Şuşa uğrunda gedən döyüşlərdə iştirak etməyin arzusunda olublar. Şuşa uğrunda gedən döyüşlərdə iştirak edən Mənsur Ağayev noyabrın 9-u Şuşada şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

(Ardı 7-ci səhifədə)

# Xalqımızın qəlbində əbədi yaşayanlar



(Əvvəli 6-cı səhifədə)

**Baş leytenant Əvdil Qardaşxan oğlu Quliyev** 31 iyul 1972-ci ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub. 1980-ci ildə Təzəkənd kənd orta məktəbinin birinci sinfində təhsil almağa başlayıb. Məktəbi bitirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olaraq institutun hərbi kafedrasını bitirib "leytenant" hərbi rütbəsi alıb. 2000-ci ildə "baş leytenant" hərbi rütbəsi ilə xidmətini başa vurub. 2018-ci ildən etibarən Ə.Məmmədov adına Təzəkənd kənd orta məktəbində "Gənclərin çağırışaqədərki hazırlığı" fənninin tədrisi ilə məşğul olub.

2020-ci ilin iyulunda Tovuz hadisələrindən sonra orduya yazılmaq üçün könüllü olaraq müraciət edib. İkinci Qarabağ müharibəsi başladıqdan sonra oktyabrın 1-də xidmətə çağırılıb. Füzuli, Cəbrayıl, Qubadlı, Hadrut və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 6-da Şuşakənd istiqamətində gedən döyüşlərdə zabit yoldaşına kömək etmək istəyərkən düşmən tərəfindən açılan snayper atəşi ilə şəhid olub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, 3-cü dərəcəli "Rəşadət" ordeni, "İgidliyə görə", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



* * *

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Taleh Zülfəli oğlu Namazov** 1999-cu il iyulun 28-də Ağstafa rayonunun Düzqışlaq kəndində anadan olub.

Taleh də 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində - xalqımızın haqq savaşında döyüşüb. Füzulinin azadlığı uğrunda gedən ağır döyüşlərdə Taleh mərdliklə mübarizə aparıb. T.Namazov oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Doğulduğu Ağstafa rayonunun Düzqışlaq kəndində dəfn edilib. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

* * *



**Qasım Əli oğlu Abdullazadə** 27 iyul 1999-cu ildə Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsində anadan olub. 2005-ci ildə Mərdəkanda yerləşən H.Z.Tağıyev adına 123 nömrəli orta məktəbdə təhsil almağa başlamış və 2016-cı ildə İsmayıllı rayonu 1 nömrəli tam orta məktəbdən məzun olmuşdur. Qasım 2017-ci il iyulun 27-də həqiqi hərbi xidmətə çağırılıb. 2019-cu ildə hərbi xidmətini başa vurub.

Qasım Abdullazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı cəbhənin bir çox istiqamətlərində gedən döyüşlərdə iştirak edərək şücaət göstərib. O, 14 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

* * *

Şəhidlərimizin hər biri Azərbaycan xalqının qəhrəmanlıq tarixinin ayrılmaz hissəsidir. Onların əziz xatirəsini yaşatmaq, həyatlarını və şərəfli döyüş yolunu gələcək nəsillərə çatdırmaq və göstərdikləri şücaəti daim yad etmək hər birimizin mənəvi borcudur. Doğum günlərində onları ehtiramla anarkən, Vətən üçün göstərdikləri fədakarlığın heç vaxt unudulmayacağına bir daha əmінik. İgid oğullarımızın əziz xatirəsi hər zaman anılacaq, onların adı xalqımızın qəlbində əbədi yaşayacaqdır.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**



*Məişət*

# Sevdiyi işin peşəkarları

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ali diqqət və qayğısının nəticəsində qalib ordumuzun bütün bölmələrində müasir məişət şəraiti yaradılıb. Şəxsi heyətin sosial təminatı yüksək səviyyəyə çatdırılıb. Əsgərlər keyfiyyətli qida, ərzaq və geyimlə təmin olunublar. Hərbi hissələrdə müasir yeməkxanalar, yataqxanalar, məişət otaqları, hamam və camaşırxanalar istifadəyə verilib. Bu istiqamətdə mütəmadi olaraq islahatlar davam etdirilir, gənclərin müddətli hərbi xidmətlərini uğurla keçməsi üçün hər cür şərait yaradılır.*

Hərbi hissələrdə diqqətdə saxlanılan təminat növlərindən biri də şəxsi heyətin qidalanmasıdır. Yüksək kalorili ərzaqlardan hazırlanan xörəklərlə vaxtında qidalanma əsgərin sağlamlığına və əhvali-ruhiyyəsinə müsbət təsir edir. Hazırda ordumuzun bütün bölmələrində müasir avadanlıqlarla təchiz olunan yeməkxanalar fəaliyyət göstərir. Eləcə də, burada çalışan təcrübəli aşpazlar gündəlik olaraq şəxsi heyətə milli mətbəximizin dadlı təamlarından hazırlayırlar.

"N" hərbi hissənin yeməkxanasında yaradılan şəraitlə, burada çalışan aşpazların və işçilərin fəaliyyəti ilə yaxından tanış olduq və yemək saatında əsgərlərin düşüncələrini öyrəndik. Hərbi hissənin yeməkxanası yeni, müasir tələblərə uyğun tikilib və zəruri avadanlıqlarla təmin edilib. Yaradılan səliqə-sahman, təmizlik, işçilərin tələblərə uyğun geyimləri də ürəkaçandır.

Adilə Qasımova və Məhbubə Mədətova hərbi hissənin təcrübəli aşpazlarıdır. Hər ikisi eyni vaxtda mülki işçi kimi işə düzəlib. Hər ikisi də aşpazlıq kursu keçib. Hər gün yüzlərlə hərbçi onların bişirdikləri yeməklərdən yeyir və razı qalır. İşin də gözəlliyi və özəlliyi budur ki, həm özün işindən zövq alırsan, həm də başqaları səndən razı qalır.

Nahar vaxtına az qalıb. Burada nahar öncəsi hazırlıq öz axarında davam edir. Müşahidə edirik ki, hər kəs öz işini yaxşı bilir və işinə sevgi ilə yanaşır. Artıq yeməklər də bişib hazırdır. Yeməkxana işçiləri bişmiş yeməkləri qazanlara doldurub paylama masalarına düzürlər. Burada müxtəlif çeşidli xörəklərdən başqa mövsümü salatlar və meyvə şirələri da var. Yeməyə gələn əsgərlər sıra ilə düzülüb xüsusi qaba birinci, ikinci xörəkləri çəkir, tərəvəz salatı, meyvə şirəsi, iki növ çörəkdən istədiyi qədər götürə bilir. Aşpazlar qida rasionunda nəzərdə tutulmuş bir neçə çeşiddə xörək bişiriblər. Bişirdikləri xörəkləri də əsgərlərə özləri çəkirlər.

Aşpaz Adilə Qasımova deyir ki, ona verilən ərzaqlarla əvvəlcədən təsdiq olunmuş qida rasionunda göstərilən xörəkləri bişirir. "İnsan öz işinə məsuliyyətlə yanaşmalıdır. Mən həmişə çalışmışam ki, bişirdiyim yeməklər dadlı alınsın, hərbi qulluqçular ondan razı qalsınlar. Onların hər dəfə bişirdiyim xörəklərdən razı qalıb etdikləri təşəkkürlər mənə ruh verir. Buna görə də özümü xoşbəxt sanıram".

Öyrənirik ki, burada çalışan aşpazlar İkinci Qarabağ müharibəsi zamanı da, ön cəbhədə döyüşən hərbi qulluqçulara səhra mətbəxində yeməklər bişirib. Hazırda aşpazlar ən yeni, hər cür avadanlıqlarla təmin edilmiş yeməkxanada çalışırlar. Bu cür təminat onların və burada çalışan bütün işçilərin xidmətini asanlaşdırır. Bişirilən xörəklərin dadlı-duzlu alınması üçün söz yox ki, yüksək təminat mühüm rol oynayır.

İnsan sevdiyi işin, peşənin peşəkarı olmalıdır. Əgər insan görəcəyi işi mükəmməl öyrənib, onu ən yüksək səviyyədə təqdim edirsə, bu onun böyük uğurudur. Aşpazlar Adilə xanım da, Məhbubə xanım da öz işini sevən, ona qəlbən bağlı insanlardır. İş prosesində bir-birindən məsləhət alır, xörəklərin daha dadlı alınması üçün bişirmə vaxtına, ədviyyatların ardıcıl əlavə edilməsinə ciddi əməl edirlər.



Məhbubə xanım işinin peşəkarı, tələbkar və məsuliyyətlidir. Onun bu cür xarakteri hər kəsin üreyincədir. Yeməkxanada çalışanlar yaxşı bilirlər ki, Məhbubə xanımın bu cür tələbkarlığı yeməklərin vaxtında və keyfiyyətli bişməsi üçündür. Xanım aşpaz deyir: "12 ildir burada çalışıram. İlk vaxtlar çətin olsa da heç vaxt ruhdan düşmədim. Arzum idi ki, Vətən müdafiəçilərinə ən dadlı yeməkləri bişirim. Onlara evdə analarının bişirdiyi dadlı-duzlu xörəklərdən hazırlayım. Hər dəfə əsgərlər bişirdiyim yeməklərdən razılığını bildirəndə xoşbəxt oluram. Mənim bu cür çalışmağım əsgərlərin daha yaxşı qidalanaraq nümunəvi xidmət etməsinə şərait yaradır. Düşünürəm ki, hər kəs çalışdığı sahə üzrə daha yaxşı, daha mükəmməl iş ortaya qoymalıdır".

Aşpazlıq da ən mühüm peşələrdəndir. Bu peşənin də yetərincə çətinliyi və incəlikləri var. Bişirilən milli xörəklərdən dolma, bozbaş, aş və onlarla müxtəlif çeşiddə olan ayrı-ayrı xörəklər hərbçilərin ürəyincə olur. Yeməkxanada hər dəfə yemək götürən zaman aşpazlara olunan "təşəkkürlər"i eşitdik. Bu da aşpazların və burada çalışan digər işçilərin yüksək ovqatından irəli gəlir.

Nahar vaxtı yeməkxanaya gələn əsgərlərin də düşüncələrini öyrəndim. Hər biri əsgər olmaqdan, Vətənə övladlıq borcunu yerinə yetirməkdən qürurlu olduqlarını bildirirdilər. Heç nədən korluq çəkmədiklərini, yaradılan şəraitdən razı olduqlarını dedilər. Əsgər Loğman Abdullayev dedi ki, əsgər yeməkxanasında bişirilən xörəklər həmişə dadlı olur. "Hərbi xidmətə gəlməmişdən burada yeməklərin necə olacağı məni çox düşündürürdü. Bəzən də özüm özümə sual edirdim: Görəsən oradakı yeməklər evdə anamızın bişirdiyi xörəklərin dadını, tamını verəcəkmi? Artıq bu gün tərəddüdsüz deyə bilərəm ki bəli, anamın bişirdiyi xörəyin tamını burada hiss edirəm".

Söhbətləşdiyim digər əsgərlər də bu ali diqqətin qarşılığında nümunəvi xidmət edib, bacarıqlı əsgərlər olmağa səy göstərdiklərini vurğuladılar. "Amalımız Vətənimizin keşiyində inamla dayanıb bizə bəslənən etimadı doğrultmaqdır. Keçirilən dərslərdə, məşğələlərdə həvəslə iştirak edir, bacarıqlı və nümunəvi əsgərlər olmağa can atırıq. Azərbaycan əsgərinə göstərilən yüksək diqqət və qayğıya görə bölməmizin bütün əsgərləri adından Ali Baş Komandanımıza təşəkkürümüzü bildiririk".

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Nəriman Həsənzadə Vətənimizin müsəlləh söz əsgəri idi

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ictimai xadim Nəriman Həsənzadə nurlu, işıqlı ömrünün 96-ci ilində haqq dünyasına qovuşdu. Həyata gözlərini əbədi yumdu... O, görkəmli şəxsiyyət, Vətənimizin müsəlləh söz əsgəri idi. O işıqlı insan müasir Azərbaycan poeziyasına misilsiz töhfələr bəxş edib. Çoxşaxəli ədəbi yaradıcılığı və mütəfəkkir ideyaları ilə ötən əsrin 50-ci illərinin Azərbaycan poeziyasına yeni nəfəs, yeni ruh gətirib. Böyük söz ustadı Nəriman Həsənzadə milli ədəbiyyatımızın, klassik ədəbiyyatımızın çoxəsrlik parlaq ənənələrinə sadiq qalmaqla, özünəməxsus ifadə tərzi və dəst-xətti ilə poetik fikir xəzinəmizi daha da zənginləşdirib. Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, mənəvi ucalığa çağırış təşkil edən əsərləri onu həmişə ədəbi prosesin ön mövqelərində saxlayıb. Poema və mənzum pyeslərində keçmişimizin uzaq və yaxın dövrlərinin taleyüklü mühüm hadisələrini və böyük şəxsiyyətlərini tarixi həqiqətlər işığında dərin vətənpərvərlik və milli dövlətçilik duyğusu ilə canlandırıb. Azərbaycan xalqının mübarizliyini, qəhrəmanlığını tərənnüm edən bu əsərlər teatr səhnələrində uğurla tamaşaya qoyulub, tamaşaçıların dərin rəğbətini qazanıb. Ölkənin, cəmiyyətin həyatında baş verən proseslərə hər zaman dərin vətəndaşlıq duyğusu ilə yanaşmış Nəriman Həsənzadə



mədəniyyətimizin tərəqqisi, milli-mənəvi dəyərlərimizin qorunub yaşadılması üçün var qüvvəsini sərf edib. Onun əsərləri əsasında hazırlanan “Bütün Şərq bilsin”, “Atabəylər”, “Pompeyin Qafqaza yürüşü”, “Nabat xalanın çörəyi” və digər tamaşalar sənətsevərlər tərəfindən daim alqışlarla qarşılanıb.

Nəriman Əliməmməd oğlu Həsənzadə 18 fevral 1931-ci ildə Qazax rayonunun Poylu qəsəbəsində anadan olub. 1949-1953-cü illərdə indiki Gəncə Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. 1961-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirib və orada ikiillik Ali Ədəbiyyat kurslarında oxuyub.

Əmək fəaliyyətinə 1962-ci ildən başlayan Nəriman Həsənzadə “Azərbaycan gəncləri” qəzetində, “Azərbaycan” jurnalında və Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində müxtəlif vəzifələrdə çalışıb. O, 1978-1991-ci illərdə “Ədəbiyyat və incəsənət” qəzetinin baş redaktoru işləyərkən qəzetin ədəbi-ictimai mühitdə nüfuzunun daha da genişləndirilməsi üçün var qüvvəsi ilə çalışıb. 1991-2001-ci illərdə Azərbaycan Respublikası Mətbuat və İnformasiya nazirinin birinci müavini və nazir əvəzi vəzifələrində çalışıb. O, 2001-ci ildən ömrünün sonunadək Milli Aviasiya Akademiyasının Humanitar fənlər kafedrasına rəhbərlik edib. Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının sədri olub.

Xalqımızın görkəmli şairi Nəriman Həsənzadənin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında mühüm xidmətləri dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilib. O, müxtəlif illərdə “Əməkdar incəsənət xadimi”, ”Xalq şairi” fəxri adlarına, “Şöhrət”, ”Şərəf”, “İstiqlal”, “Heydər Əliyev” ordenlərinə layiq görülüb. Söz sənətkarı 2002-ci ildən Prezidentin fərdi təqaüdçüsü idi. Mütəfəkkir şair, mütəfəkkir yazıçı, görkəmli dramaturq, böyük insan Nəriman Həsənzadənin əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

...Böyük sənətkara uca Yaradandan rəhmət diləyirik...

Vətənimizin müsəlləh söz əsgərinin ömür verdiyi və qələbələrimizi, Böyük Zəfəri tərənnüm edən seçilmiş poeziya nümunələrini oxucularımıza təqdim edirik.

### Salam, ay bizim dağlar

Millət qalxıb ayağa,
And içibdi torpağa.
Gəlirik Qarabağa,
Salam, ay bizim dağlar!

Döyüşdədir oğullar,
Qorxub qaçır o qullar.
Salam, ay bizim yollar,
Salam, ay bizim dağlar!

Mən o yaldan aşmadım,
Gəzmədim, dolaşmadım.
Mən ki vidalaşmadım,
Salam, ay bizim dağlar!

Yoxa çıxan əliklər,
Üşüyən kölgəliklər,
Qırılan meşəliklər,
Salam, ay bizim dağlar!

Vətən uğrunda gedən
Vətən oğludu Vətən!
Doğuluruq yenidən,
Salam, ay bizim dağlar!

Qaçıb yerin yuxusu,
Azərbaycan Ordusu,
Səni Tanrı qorusun,
Salam, ay bizim dağlar!

Yağışa bax, yağışa,
Tanklar qalxır yoxuşa.
Salam, Xankəndi, Şuşa,
Salam, ay bizim dağlar!

Salam, Vaqif, baş vəzir,
Xalq qoşunla birləşir.
Qurd hələ fikirləşir,
Salam, ay bizim dağlar!

Çağır ulu öndəri,
Azərbaycan əsgəri
Heyran qoydu bəşəri.
Salam, ay bizim dağlar!

İlham baş sərkərdədi,
O daim səngərdədi.
Şöhrəti dillərdədi,
Salam, ay bizim dağlar!

Yenə göy gurlayacaq,
Yenə şimşək çaxacaq,
Sellər-sular axacaq,
Salam, ay bizim dağlar!
Dünya şahmat xanası,
Qələbə - astanası.
Salam, şəhid anası,
Salam, ay bizim dağlar!

### Zəfər yolu

Şuşa yolu, Zəfər yolu,
Otuz illik səfər yolu!
Cənab Ali Baş Komandan,
Səfərdəsən sən o vaxtdan.
İstidə, boranda, qarda,

Uzaq-yaxın o yollarda!
Yol içindən yol seçirsən,
Keçilməz yollar keçirsən, -
Fikrin-zehnin yollarını,
44 günün yollarını.

Şuşa yolu, Zəfər yolu
Sevinc yolu, məhşər yolu.
Solum səhra, sağım səhra,
yarı Qarabağım, səhra!
Dünyanın sonu buydumu,
mən gördüyüm yuxuydumu?!
Uçan körpü, yanan meşə,
ərşə çəkir, məni ərşə!
Kirəmidli bir binadan,
qalan nədir?
Uçuq eyvan,
Sökülmüş tənha bir divar.
apar-apardı, sök, apar!
Yerində bir şey qalmasın,
söyüş, ya giley qalmasın.
Erməninin əl işidi,
nəsil-nəsil vərdişidi.
Avtoqraf! -
öz xətti, adı,
Şuşada bayquş uladı.

Cənab Ali Baş Komandan,
piyada keçdin o yolu.
İlham pərisi Mehriban,
Yanında, keçdin o yolu.
O bayquşlar ulaşanda,
Səhrada keçdin o yolu.
Mərd əsgər, qalib Sərkərdə,
davada keçdin o yolu.
Gəldi qardaşın Ərdoğan,
qovğada keçdin o yolu.
Əvvəl də keçdin o yolu,
Sonra da keçdin o yolu!

Salam Şuşa, salam Vaqif!
Ulu öndər, bir də salam!
Abidənin önündəyəm,
heykəl kimi dayanmışam.
Çiçək bilib sevinirik,
üstümüzə yağan qarı.
Ulu öndər alqışlayır,
Gətirdiyi qonaqları, -
Dağılardı dərdi-qəmi,
bu duman kimi, çən kimi.
Uşaq kimi sevinərdi
o, bir şair görən kimi.
İlham orda, aramızda,
İyirmi bir yaşındaydı,
Şuşanın yaddaşındaydı.
Zərifə xanım - anası,
Ulu öndərin əzizi.
O da orda qar altında
Dinləyirdi şeirimizi.
İlk dəfəydi tanıyırdı o da məni.
Elə bildim anam gəlib.
bacım gəlib,
alqışlayır orda məni.
İlahi, nə ulu öndər,
nə o günlər?!
Hər anı bir tarix imiş.
Vaxt Zərifə xanımı da
qayb elədi,
türklər demiş.

- Əlli doqquz yaşındayam! -
Bunu Ali Baş Komandan
özü dedi.
Ulu öndər o zaman da
həmin yaşın içindəydi.

Bu tarixdi, həqiqətdi.
Təsadüf də,
eşitmişəm zərurətdi.
Demək, bu da dərkedilməz
bir hikmətdi.
Demək, bu əlli doqquz da,
o birinin əvəziydi.
Atasının nəfəsiydi.
Bir kitabın o iki
səhifəsiydi.
Bir dağın da
İki qarlı zirvəsiydi.
Bu, qəhrəman bir millətə,
Azərbaycan, sənə şanlı töhfəsiydi.
Demək, gələn, gəlməliydi.
O Haqqa yüksəlməliydi.
Qoşun çəkib açmalıydı.
Bizim Zəfər yolumuzu.
Tarix təqdim etməliydi,
əsrimizə, -
İlham adlı oğlumuzu.

Salam Şuşa, Cıdır düzü!
Yer üzünün cənnət üzü!
Yerin göylərə tutduğu
dağlarda Meydan güzgüsü!
Mən burdan çağırsam səni,
eşidər dünya səsimi.
Yellər burdan tez aparar,
ulduza - Aya səsimi.
Sıx meşələr,
Uçqun qayalar, dərələr.
Dağətəyi enən cığır,
yer üzünün sonunamı
gedib çıxır?
Salam İsa bulağımız!
Səndə olub, sən susanda,
Həmişə bir qulağımız.
"Xarıbülbül", "Xarıbülbül"!
nə bu rəngdə çiçək gördüm,
nə bir yerdə bu adda Gül!
"Xarıbülbül" - mehmanxana!
Aç orda, aç pəncərəni.
Hər saatı bir ömürdü,
dağlardan nəfəs alana,
təbiət çağırır səni!
Ən gözəl seyrangahımdı,
Ən gözəl tamaşam mənim!
Mədəniyyət paytaxtımdı
Şuşam mənim!

Sən mənim könül aləmim,
Muğamım-sazımsan, Şuşa!
Zirvədə qarlı qışımsan,
Dərədə yazımsan, Şuşa!

Yerlər geniş, göylər təmiz,
Ətəyin güllü süfrəmiz.
Burda Gəncə, orda Təbriz,
Kürüm, Arazımsan, Şuşa!

Yağan leysandı, gürşaddı,
Pənah xanın ruhu şaddı.
Gedən getdi, qalan qaldı
Sən alın yazımsan, Şuşa!

Əsgər gördüm, gümrahıydı,
dünən, Şuşa yollarında.
Zəfər yolu dediyimiz
həmən Şuşa yollarında,
bu gün - Şuşa şəhərində.
Axşamın da, səhərin də
bu yerlərdə sahibi var,
yiyəsi var.
Düşmənin yüz hiyləsi var,
yüzbiri də xəyanətdi.
Bu torpağın hər qarışı
Şəhidlərdən əmanətdi.

### Nərdivan

Bu dünya nərdivandı.
Qalxanda mehribandı
Enəndə nə yamandı.
Görüşdük pillələrdə,
Yolun yarısında biz.
O qalxırdı bu dəmdə,
Mən enirdim xəbərsiz.
Onu arzularına
Qaldırıdı nərdivan,
Məni xatirələrə endirirdi.
Bu zaman,
birimiz-günçıxana,
birimiz-günbatana…
Qalxa bilməzdim daha,
Nə o güc, nə o taqət.
O da enə bilməzdi.
Haqlı-haqsız,
vermişdi öz hökmünü təbiət.
Gərək ya düşməyəydi
Bu görüş heç araya.
Ya o əvvəl gələydi,
Ya mən sonra dünyaya.

### Elə dayanırsan, elə baxırsan

Elə dayanırsan, elə baxırsan,
Elə bil qarşında quru bir daşam.
İpək saçlarını bir vaxt oxşayan-

Elə bil hardasa mən olmamışam.

Səni dostlarımla, tanışlarımla,
Mən tanış edərdim
nə vaxtsa bir-bir.
İndi özgələri yad ehtiramla,
Deyirlər tanış ol... Nə qəribədir?!

Yuxuda görərdin
nə vaxtsa hər dəm,
Yolumu gözlərdin yollardan uzaq.
Mən sənin yuxundan
çıxıb gəlmişəm,
Bu da bir yuxudur, gəl tanış olaq.

Qoluna girərdim...
bu, yadındadır,
gedərdik...
yolumuz, arzumuz şərik.
Qolum qollarının lap yanındadır,
toxunsa biz indi üzr istəyirik.

Hayanda oldumsa səhər,
ya axşam,
Aradın sən məni,
gördün sən məni.
İndi gözlərinin qabağındayam,
Hayanda durum ki,
görəsən məni?

**Hazırladı:**
**Lalə HÜSEYNOVA**
**“Azərbaycan Ordusu”**

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 696
Nüsxə 3653